

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 155 (23.066)

17 avqust 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 16 avqust tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi qulluqçuları da vardır.

**Əliquliyev Əvəz Qoçəli oğlu – polkovnik-leytenant**

**Nəsirov Aqil Arif oğlu – mayor**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Muxtar respublika əhalisi payız-qış mövsümündə də fasiləsiz içməli su ilə təmin olunacaq

*Naxçıvan Muxtar Respublikasında içməli su və kanalizasiya sistemlərinin 2018-2019-cu illərin payız-qış mövsümünə dair hazırlığı və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilən iclasda komitənin sədri Əsgər Əsgərov məruzə ilə çıxış edib.*



Bildirilib ki, muxtar respublika sakinlərinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün lazım olan bütün tədbirlər həyata keçirilir. Bu baxımdan içməli su və kanalizasiya sistemlərinin qurulması, əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təminatı diqqətdə saxlanılır.

Təmiz su təminatı həyati zərurət olmaqla yanaşı, həm də bir yaşayış keyfiyyəti və mədəni səviyyə standartı kimi qəbul edilir. Odur ki, muxtar diyarımızda su təsərrüfatının inkişafı istiqamətində önəmli işlər görülür. Təsdiq edilmiş dövlət proqramlarına uyğun olaraq yeni su anbarları, magistral, şəbəkə və kanalizasiya xətləri, sutəmizləyici və çirkab sutəmizləyici qurğular tikilir. Artıq bir neçə ildir ki, paytaxt Naxçıvan şəhərində və muxtar respublikamızın əksər böyük yaşayış məntəqələrində həyata keçirilmiş içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına yönəlmiş mühüm işlərin tərkib hissəsidir. Belə ki, son illərdə muxtar respublikanın Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz rayonlarında daxili su və kanalizasiya şəbəkələrinin çəkilməsi, içməli su sayğaclarının quraşdırılması, sakinlərin ekoloji cəhətdən təmiz, fasiləsiz içməli su ilə təmin olunması, çirkab sularının kənarlaşdırılması üçün ana xətlərin yenilənməsi və digər tədbirlər əhali tərəfindən onlara göstərilən dövlət qayğısı kimi dəyərləndirilib. Çünki bu işlər muxtar respublika sakinlərinin rahat yaşayışının təmin olunmasına, normal şəraitin yaradılmasına xidmət edir.

Komitə sədri bildirib ki, bu şəraitin qış aylarında da qorunub saxlanılması üçün payız-qış mövsümünə hazırlıqla bağlı konkret hədəflər müəyyənləşdirilməlidir. Belə ki, əhalinin içməli suya olan tələbatının ödənilməsi, bu sahənin payız-qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinə indidən xüsusi diqqət yetirilməli, lazımi material ehtiyatı yaradılmalıdır.

Su nasoslarının payız-qış mövsümündə normal işləməsi, əhalinin içməli su təminatında fasilələrə yol verilməməsi üçün sutəmizləyici avadanlıqların yerləşdiyi binaların qızdırılması, pəncərə və qapıların tələb olunan standartlara uyğunluğu təmin edilməlidir. İstər fərdi mənzillərdə, istərsə də çoxmərtəbəli yaşayış binalarında sayğacların və su xətlərinin donmaması üçün profilaktik tədbirlər görülməlidir.

Su şəbəkəsi üzərində yerləşən siyirtmələrə vaxtında baxış keçirilməli, yoxlanılmalı, lazım gələrsə, siyirtmə və siyirtmə quyularında təmir işləri aparılmalıdır.

Diqqətə çatdırılıb ki, Şahbuz və Culfa Şəhər Sutəmizləyici Qurğular komplekslərində, Babək və Şərur rayonlarının xlorlama binalarında istilik sistemlərinin, nasosların və digər hidrotexniki qurğuların sazlığı yoxlanılmalı, ehtiyac olarsa, təmir işləri aparılmalı, su anbarlarının təmizliyinə diqqət yetirilməlidir.

"Payız-qış mövsümünə qədər mövcud kaptajlara, kəhrizlərə, subartezian quyularına nəzarət edilməli, suların keyfiyyəti yoxlanılmalı, təmizliyi sanitar-gigiyenik qaydalara uyğunlaşdırılmalı, su obyektlərindən düzgün istifadə edilməsi üçün maarifləndirici söhbətlər aparılmalıdır", – deyən Əsgər Əsgərov vurğulayıb ki, vətəndaşlar tərəfindən ünvanlanan müraciətlərə əsasən yeni tikilən binalara içməli su və kanalizasiya xətlərinin çəkilməsi üçün yerli idarələr həmin ərazilərə baxış keçirməli və xətlərin tikintisi payız-qış mövsümünə qədər təmin edilməlidir.

Rayon Meliorasiya və Su Təsərrüfatı idarələri tərəfindən rayon mərkəzi və ətraf kəndlərdə əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılması üçün mövcud xətlərin və hidrotexniki qurğuların yenidən bərpa edilməsi, subartezian quyularının təmir olunması, yeni su xətlərinin çəkilməsi, çəkilmiş su xətlərində təzyiqin normada saxlanılması, qəzalara yol verilməməsi və baş vermiş qəza hallarında onun dərhal aradan qaldırılması üçün müvafiq tədbirlər həyata keçirilməli, payız-qış mövsümünə hazırlıq işləri vaxtında sona çatdırılmalıdır. Habelə su nasoslarına baxış keçirilməli, havalar soyuduqda qış mövsümü üçün lazımi tədbirlər görülməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

## Rəsmi statistikanın inkişafına dair dövlət proqramının icrası istiqamətində işlər davam etdirilir

***Bu gün özünün inkişaf dövrünü yaşayan muxtar respublikamızda artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir, səmərəli məşğulluq təmin edilir.***

İqtisadi və sosial sahələrdə baş verən dəyişikliklərin qeydə alınaraq təhlili və müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin təmin edilməsi üçün dəqiq və dolğun statistik məlumatlara olan tələbat rəsmi statistikanın təkmilləşdirilməsini də şərtləndirir. Bu istiqamətdə muxtar respublikada rəsmi statistikanın inkişaf etdirilməsi və statistika sahəsində işlərin daha da təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 2 mart tarixli Sərəncamı ilə "2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" təsdiq edilib.

Dövlət proqramının tədbirlər planı 5 bölmədən ibarətdir. Bölmələrə sosial statistika, iqtisadi statistika, çoxsahəli statistika, rəsmi statistika materiallarının istehsalının hüquqi, inzibati və informasiya təminatı, maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi daxildir. 29 tədbiri özündə birləşdirən tədbirlər planının aidiyyəti strukturlarla əlaqələndirilməsi və icrasının yekunu Dövlət Statistika Komitəsinə tapşırılıb.

Dövlət proqramına daxil edilmiş tədbirlərin icrası nəticəsində:

- iqtisadiyyatın strukturunun və sahələrarası əlaqələrin təhlilinə imkan verən yeni statistik məlumatların, kənd təsərrüfatının dinamikası, strukturu, inkişaf meyilləri, maddi-texniki bazası, işçi qüvvəsi barədə müfəssəl, ev təsərrüfatlarında istehsal da daxil olmaqla, sənaye məhsullarının istehsalına dair statistik məlumatların əldə edilməsi, sənaye müəssisələrində mövcud olan istehsal avadanlıqlarının vəziyyəti, yaşı və onlardan istifadə ilə bağlı məlumatların hazırlanması;
- pərakəndə ticarət dövriyyəsinin yerli və idxal malları üzrə strukturuna dair statistikanın formalaşdırılması, avtomobil nəqliyyatı ilə daşınmış yüklərin həcmi, növü, dövriyyəsi, sərnişindaşımalar, sərnişindaşımalarda istifadə olunan nəqliyyat vasitələri, daşınmalardan əldə olunan gəlir və sair göstəricilər üzrə statistik məlumatların hazırlanması, turizm statistikası üzrə göstəricilər sisteminin əhatə dairəsinin genişləndirilməsi;
- mikro, kiçik və orta sahibkarlıq statistikası üzrə göstəricilər sisteminin hazırlanması və məlumat bazasının yaradılması;
- muxtar respublikanın şəhər və rayonları üzrə işçi qüvvəsi barədə, əlillərin məşğulluğuna dair cins tərkibi, yaş qrupları, təhsil səviyyəsi, əlillik dərəcəsi və sair göstəricilər üzrə, reproduktiv yaşda olan əhalinin və uşaqların həyat keyfiyyətini xarakterizə edən statistik məlumatların, əhalinin müxtəlif sosial-demoqrafik qrupları bölgüsündə gündəlik fəaliyyətlər üzrə vaxt sərfiyyatına dair məlumatların hazırlanması;
- əhalinin fasiləsiz təhsildə iştirakı üzrə məlumatların hazırlanması, peşə təhsili səviyyəsində kadr hazırlığı ilə əmək bazarının tələbləri arasında tarazlığın qiymətləndirilməsi;
- telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair qarşıya qoyulmuş hədəflərə çatma vəziyyətinin statistik qiymətləndirilməsi, mövcud kitabxanalar, kitab fondu və ondan istifadə ilə bağlı məlumatların hazırlanması;
- kənd təsərrüfatı ilə məşğul olan ailə kəndli və ev təsərrüfatlarının elektron məlumat bazalarının yaradılması;
- statistik məlumatların hazırlanmasına sərf olunan vaxtın və xərclərin kağızsız texnologiyanın tətbiqi yolu ilə azaldılması, sənədlərlə işin təşkilində səmərəliliyin yüksəldilməsi, maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi təmin ediləcəkdir.

Hazırda dövlət proqramında 2018-ci ildə yerinə yetirilməsi müəyyənləşdirilmiş tədbirlərin icrası həyata keçirilməkdədir. Belə ki, cari ilin ötən dövründə tədbirlər planının 5.1.1. bəndinə əsasən muxtar respublika üzrə işçi qüvvəsinə dair rüblük seçmə statistik müayinənin və 5.3.1. bəndinə əsasən ev təsərrüfatları büdcələrinin tədqiqatına dair rüblük seçmə statistik müayinənin keçirilməsi təmin edilib. Bundan başqa, tədbirlər planının 5.5.3. bəndində nəzərdə tutulmuş Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin "Statistik Məlumatlar Sistemi"nin elektron bazası və proqram təminatının hazırlanması və tətbiqi istiqamətində hazırlıq işlərinə başlanılıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Kəngərli rayonunda sığorta fəaliyyətinin təşkili ilə bağlı müzakirələr aparılıb

*Dünən Kəngərli Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.*

İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov tədbiri açaraq rayonda sığorta fəaliyyətinin təşkili sahəsində görülmüş işlər haqqında danışıb. Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək bildirib ki, sığorta müasir dövrdə hər bir insan üçün vacib tələbatlardan birinə çevrilib. O qeyd edib ki, muxtar respublikamızın sosial-iqtisadi inkişafında əhəmiyyətli olan sığorta gözlənilməz hadisələr baş verdikdə vətəndaşlara dəyən maddi zərərlərə təminat verir.

Vurğulanıb ki, muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti vardır.

Qeyd olunub ki, vaxtında sığorta olunmaqla sığorta hadisələri baş verdikdə insan sağlamlığına, daşınmaz əmlaka, avtomobillərə, kənd təsərrüfatı məhsullarına dəymiş maddi zərərlərə qarşı təminat verilir, vurulmuş zərərlərin qısa müddətdə bərpa olunmasına şərait yaradılır. Buna görə də ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari qaydada sığortalanması həyata keçirilir. Gözlənilməz hadisələr baş verdikdə vətəndaşların onlara dəymiş zərərlərə görə sığorta ödənişləri almaq hüquqları qanunla təmin olunur.

Baş direktor həyata keçirilən sığorta növləri üzrə Kəngərlidə görülmüş işləri təhlil edərək bildirib ki, ötən müddətdə burada bu istiqamətdə müəyyən işlər görülüb. Belə ki, rayon üzrə cari ilin ilk 7 ayında, ümumilikdə, 2792 ədəd sığorta müqaviləsi bağlanılıb. Onlardan avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 528, daşınmaz əmlakın icbari sığortası üzrə 1159 ədəd sığorta müqaviləsi bağlanılıb. Könüllü sığorta müqavilələri isə 1093 ədəd təşkil edir.



Bildirilib ki, bununla yanaşı, rayonda daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortaları, ev əmlakı, fərdi qəza, kənd təsərrüfatı sığortası və digər sığorta növləri üzrə görülmüş işlərlə bərabər, hələ də daşınmaz əmlakını icbari sığorta etdirməyən vətəndaşlar və sahibkarlar vardır. Eləcə də yol hərəkətində iştirak edən avtonəqliyyat vasitəsi sahibləri tərəfindən mülki məsuliyyətini icbari sığorta etdirməyən fiziki şəxslər vardır.

Diqqətə çatdırılıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığorta olunmalı bütün obyektlərin sığortası təmin olunmalıdır. Bu məqsədlə Kəngərli rayonunda vətəndaşlar arasında sığorta maarifləndirilməsinə diqqətin daha da artırılması və ayrı-ayrı sığorta növləri üzrə işlərin genişləndirilməsi zərurəti vurğulanıb. Könüllü sığorta növlərinin, o cümlədən kənd təsərrüfatının, ev əmlakının sığortası, fərdi qəza sığortasının əhəmiyyətinə toxunan baş direktor bildirib ki, bunlar da, son nəticədə, vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir. Ona görə də könüllü sığortalar sahəsində aparılan maarifləndirmə və təşkilati işlər genişləndirilməlidir.

Sonra Kəngərli Rayon Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi Anar Həsənov, Kəngərli Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Qrupunun baş dövlət avtomobil müfəttişi, polis mayoru Seyidrza Seyidov görülmüş işlər barəsində məlumat veriblər.

**Xəbərlər şöbəsi**

## Ekoloji strategiya muxtar respublikamızın zəngin təbiətinin mühafizəsinə xidmət edir



***Füsunkar təbiəti, əsrarəngiz relyefi, mineral bulaqları, təbiət möcüzələri və tarixi-mədəni zənginliyi Naxçıvanın ekoturizm potensialını formalaşdırmaqla bərabər, ondan səmərəli istifadəni də zəruri edir. Bu zənginliyin qiymətləndirilməsi, ekoturizmin inkişaf etdirilməsi üçün muxtar respublika ərazisində xüsusi mühafizə olunan təbiət əraziləri statusuna daxil olan qoruqlar, milli parklar və yasaqlıqlar yaradılıb.***

Azərbaycanın böyük təbiətşünas alimi, akademik Həsən Əliyev qoruqların əhəmiyyətini yüksək dəyərləndirirdi: *“Qoruq sözü varsa, deməli, təbiətimiz qorunur”.*

Qoruqların yaradılmasında məqsəd səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbii proses və hadisələrin gedişini öyrənməkdir. Təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna, xüsusi ekoloji, elmi və mədəni dəyərə malik olan bu obyektlər respublika əhəmiyyətli xüsusi mühafizə edilən təbiət əraziləridir. Həmin ərazilərə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir.





Muxtar respublika ərazisində qoruq yaradılan təbiət əraziləri, ümumilikdə, ölkəmizdə və Qafqaz ekoregionunda təbii zənginliyi, elmi-tədqiqat mərkəzi, səciyyəvi və nadir landşaftı, bitki, heyvan növlərinin kompleks məskunlaşdığı bir coğrafi məkandır. Bu coğrafiyanın təbii zənginliyini nəzərə alan ümummilli liderimiz Heydər Əliyev 2002-ci ildə Batabat yaylağında olarkən burada qoruq yaradılmasının əhəmiyyətini qeyd edib və 2003-cü il 16 iyun tarixli Sərəncamla ümumi ərazisi 3 min 139 hektar olan Şahbuz Dövlət Təbiət Qoruğu yaradılıb.

Naxçıvan ərazisində təbiətin qorunması, elmi-tədqiqat, təcrübi işlərin aparılması ilə bərabər, eyni zamanda bu təbii sərvətlər, gözəlliklər hesabına ekoturizmin inkişaf etdirilməsi məqsədilə milli park statuslu təbiət obyektlərinin yaradılması mühüm ekoloji və iqtisadi əhəmiyyət daşıyır. Diyarımızın təbiəti, əlverişli ekoloji mühiti, relyef müxtəlifliyi, tarixi-mədəni abidələri burada turizmin inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradır.

Qeyd edək ki, milli parkların əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir. Ölkəmizdə ilk milli park 2003-cü ildə Naxçıvan Muxtar Respublikası ərazisində yaradılan, ərazisi 12 min 131 hektar olan Akademik Həsən Əliyev adına Ordubad Milli Parkıdır. Ölkə Prezidentinin 2009-cu il 29 noyabr tarixli Sərəncamı ilə onun adı dəyişdirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb, ərazisi daha da artırılaraq ümumi sahəsi 68 min 911 hektara çatdırılıb.

Muxtar respublika ərazisində fəaliyyət göstərən digər xüsusi mühafizə statuslu təbiət obyektləri yasaqlıqlardır. Dövlət təbiət yasaqlıqları təbiət komplekslərinin və ya onların komponentlərinin qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanması üçün xüsusi əhəmiyyət daşıyan ərazilərdir. Həmin yasaqlıqlar respublika və ya bölgə əhəmiyyətli, o cümlədən kompleks, bioloji, paleontoloji, hidroloji və geoloji profilli ola bilər. Muxtar respublika ərazisində ilk təbiət yasaqlığı 1969-cu ildə ümummilli liderimizin təşəbbüs və qayğısı ilə yaradılıb. 40 min hektar ərazini (Culfa, Ordubad rayonlarını) əhatə edən Ordubad Dövlət Təbiət Yasaqlığının yaradılmasında məqsəd həmin dövrdə sayları kəskin azalan muflonların, bezoar dağ keçilərinin qorunması və artırılması olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr, 2009-cu il 22 iyun tarixli sərəncamları ilə “Arazboyu” (ərazisi 9118 hektar) və “Arpaçay” (ərazisi 42 min 787 hektar) Dövlət Təbiət yasaqlıqları yaradılıb.

Muxtar respublika ərazisində yaradılan Nəbatat bağında isə bitkiləri yetişdirmək və nümayiş etdirmək üçün ekspozisiya, elmi tədqiqatlar aparmaq üçün elmi, qonaqlara xidmət göstərmək üçün ictimai, inzibati və təsərrüfat-istehsalat zonaları mövcuddur.

Yurdumuzun ərazisində əlverişli ekoloji mühitin yaradılması sahəsində həyata keçirilən tədbirlər beynəlxalq ekoloji təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir. Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Qafqaz Təmsilçiliyinin direktoru Giorgi Sanadiradze Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə ünvanladığı məktubda bu qədim diyarda təbiəti mühafizə sahəsində görülən işlərə münasibət bildirib: *“Muxtar respublikada ova qoyulmuş moratoriumun davam etdirilməsi, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və gücləndirilməsi, yerli əhalinin məlumatlandırılması tədbirləri, təbiət komplekslərinin tədqiqi və monitorinqi artıq öz bəhrələrini verməkdədir... Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında keçirilən biomüxtəlifliyin monitorinqi nadir və nəsli kəsilməkdə olan növlərin artım dinamikasında baş verən müsbət meyilləri göstərir... Bütün bu faktlar Naxçıvan Muxtar Respublikasında həyata keçirilən təbiəti mühafizə siyasətinin düzgünlüyünü bir daha təsdiq edir”.*

Əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpasıdır. Bu isə xüsusi mühafizə edilən təbiət ərazilərinin yaradılması hesabına mümkün olub. Muxtar respublika təbiətinin zənginliyi həm də burada nadir bitki və heyvan növlərinin mövcudluğu ilə ölçülür.

Görülən tədbirlər nəticəsində 1995-ci illə müqayisədə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 3,4 dəfə artıb. Ümumi ərazimizin 28 faizə qədərinin xüsusi mühafizə olunması, digər sahələrdə mühafizə və bərpa tədbirlərinin görülməsi fauna və floramızın qorunmasına, əlverişli ekoloji mühitin formalaşmasına şərait yaradıb.

Qeyd edək ki, inkişaf etmiş, təbiətə xoş münasibət göstərilən ölkələrdə bu göstərici ümumi ərazilərin yalnız 10-15 faizini təşkil edir. Xüsusi mühafizə edilən təbiət ərazilərinin yaradılması, təbiəti mühafizə sahəsində görülən kompleks dövlət tədbirləri nəticəsində əvvəllər sayı tükənməkdə olan (məsələn, bezoar dağ keçiləri, muflonlar) növlərin sayının artmasına, ərazilərimizdə yeni heyvan növlərinin yaşaması şəraitinin formalaşmasına stimul verib. Belə ki, güclü mühafizə tədbirləri, ova qadağaların qoyulması yerli heyvan növlərinin sayının artmasına şərait yaradıb. Son illərdə muxtar respublika ərazisində dünyada nadir növlərdən olan bəbirlərin müşahidə olunması dediklərimizi bir daha təsdiq edir. 2016-cı ildə Naxçıvan ərazisində bəbir ailəsinin qeydə alınması bu növlərin ərazilərimizdə mövcudluğunun sübutudur.

Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasındakı bitki və heyvan ehtiyatlarının qorunması sahəsində görülən mühüm işlərdən biri də nadir və nəsli kəsilmək təhlükəsi olan növlərin öyrənilməsi və xüsusi qorunmasının təşkil olunmasıdır. Bunun üçün ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət “Qırmızı kitab” və “Şahbuz Dövlət Təbiət Qoruğunun flora və bitkiliyi” ədəbiyyatları çap edilib.

*Əminliklə demək olar ki, göstərilən dövlət qayğısının ifadəsi olan təbiəti mühafizə sahəsində qazanılan uğurlar bundan sonra daha da artacaqdır. Unutmayaq ki, ətraf mühitdən istifadə etmək hər bir vətəndaşın hüququ olduğu kimi, onun qorunması da hər birimizin vətəndaşlıq borcudur.*

**Elçin KAZIMOV**

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

---

*Muxtar respublikamızda sahibkarlıq subyektlərinin sayı ildən-ilə artır. Təkcə paytaxt Naxçıvan şəhərində deyil, rayonlarımızda da yeni-yeni istehsal müəssisələri yaradılır. Azərbaycanın incisi sayılan Ordubad rayonunda fəaliyyət göstərən istehsal müəssisələri bu sırada öz yerini qoruyub saxlayır. Qədim tarixi keçmişi və mədəni zənginliyi ilə bərabər, həm də müasir inkişafı ilə seçilən rayonda son illərdə digər sahələrlə yanaşı, sahibkarlığın inkişafına da hərtərəfli qayğı göstərilib, onlarla yeni istehsal müəssisələri qurulub.*

*İstehsal müəssisələri*

## Sahibkarlığın inkişafı Ordubad rayonunda da gözlənilən nəticələri doğruldur



Belə sahibkarlıq subyektlərindən biri də Vənənd kəndində fəaliyyət göstərən “Ordubad Qənnadı Məmulatları” Məhdud Məsuliyyətli Cəmiyyətidir. İstehsal müəssisəsinin rəhbəri Emin Məmmədovla söhbətimiz zamanı bildirdi ki, 2013-cü ildə təsis edilən “Ordubad Qənnadı Məmulatları” MMC-nin istehsal sahəsi 97 kvadratmetrdir. Cəmiyyətdə mürəbbələr, meyvə şirələri, cemlər, meyvə məmulatları, cövhərlər hazırlanır, müalicəvi bitkilərin qurudulması, paketlənməsi həyata keçirilir. Burada 27 nəfər çalışır. Bəzi mövsümlərdə əlavə işçilər qəbul edilir.

Müəssisədə qoz, ərik, gilənar, gilas, heyva, şaftalı, albuxara, armud, tut meyvələrindən və qızılgüldən müxtəlif çeşiddə mürəbbə və kompotlar hazırlanır, boymadərən, batrınc, bizovşa, qırxbuğum, nanə, bənövşə, qızılgül ləçəyi, həmərsin, böyürtkən çiçəyi, cəviz yarpağı, gicitkən, yemişan, kəklikotu, çobanyastığı, qantəpər, solmazçiçək və digər dərman bitkiləri qurudulur, onlardan müalicəvi cövhərlər alınır. Meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi üzrə ixtisaslaşmış müəssisədə, ümumilikdə, 94 çeşiddə məhsul istehsal olunur ki, bunların 4-ü kompot, 29-u müalicəvi ot və bitkilər, ləpəsi və qovurulmuşu ilə bir yerdə 16-sı quru meyvə, 17-si cövhər, 5 çeşidini qızılgül bitkisindən alınan müxtəlif məhsullar və digərləri təşkil edir.

Müsahibim onu da qeyd etdi ki, məqsədimiz brend məhsullar yetişdirməkdir. Bunun üçün 2 hektar sahədə müxtəlif meyvə tingləri əkilib, əlavə olaraq 15 hektar torpaq sahəsi icarəyə götürülüb, payızda meyvə tingləri əkmək üçün seçmə meyvə dənələri yığılıb. 16 sot torpaq isə toxum səpilmək üçün ayrılıb.

Sanitar-gigiyenik qaydalara tam riayət olunan müəssisədə hazırlanan məhsulları müxtəlif ticarət obyektlərinə göndərmək üçün ona məxsus olan maşınlardan istifadə edilir. İstehsal olunan məmulatlar cəmiyyətin Naxçıvan şəhərində fəaliyyət göstərən mağazasında, bəzi marketlərdə, Bakı şəhərində yerləşən 2 mağazasında satışa çıxarılır.

Müəssisənin rəhbəri deyir ki, istifadə edilən xammal hazır şəkildə rayonun Vənənd, Vələver, Qoruqlar, Ağrı, Dizə, Xanağa, Başkənd və digər ətraf yaşayış məntəqələrindən, həmçinin muxtar respublikanın digər rayonlarının sakinlərindən alınır.

Müsahibim bir vacib məqamı da vurğuladı ki, istər meyvələrin, istərsə də müalicəvi bitkilərin öz yığılma vaxtı var. Məhsulları toplayarkən onlara çox həssaslıqla yanaşmaq, toplanma qaydalarına əməl etmək lazımdır. Bu, onların gələcək inkişafı, həm də hazırlanan məmulatların orijinal dadını özündə qoruyub saxlaması baxımından vacibdir.

Müəssisənin Naxçıvan şəhərində fəaliyyət göstərən filialında isə Ordubad məhsullarına kifayət qədər tələb var. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı muxtar respublikada fəaliyyət göstərən digər istehsal müəssisələri kimi, “Ordubad Qənnadı Məmulatları” MMC-nin istehsal etdiyi məhsullar da üzərində “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” loqosu olan hədiyyəlik qutularda satışa çıxarılıb. Bu isə şübhəsiz, Naxçıvana gələn qonaqlar və yerli alıcılarda rəğbət doğurub, məhsulların daha həvəslə alınmasına imkan yaradıb.

Onu da öyrəndik ki, müəssisə yeni layihələri reallaşdırmaq üçün öz təkliflərini aidiyyəti qurumlara təqdim edib.

Dövlət dəstəyi hesabına istehsal müəssisəsi yaradan növbəti sahibkar isə Ordubad şəhər sakini Hüseyn Fərzəliyevdir. Bugünkü fəaliyyətində Ordubad təbiətinin özünəməxsusluğunu əsas götürən sahibkar rəhbərlik etdiyi “FH oğulları” Məhdud Məsuliyyətli Cəmiyyətində Ordubad mürəbbələrinin istehsalı ilə məşğuldur. Hüseyn Fərzəliyevlə görüşümüz elə adıçəkilən müəssisədə baş tutdu.

Müsahibim məlumat verdi ki, müəssisə 2008-ci il tarixdə təsis edilib, 2009-cu ildən fəaliyyətə başlayıb. Burada çalışanların sayı mövsümi olaraq 5-10 nəfər arası dəyişir. Ordubad şəhərində 1000 kvadratmetr ərazidə yerləşən cəmiyyətin istehsal gücünü aylıq 10 ton mürəbbə və cem təşkil edir. İran İslam Respublikasının istehsalı olan avadanlıqların quraşdırıldığı cəmiyyət muxtar respublikada yetişən meyvə-tərəvəz və bostan məhsullarından müxtəlif mürəbbə və cemlərin hazırlanması üzrə ixtisaslaşıb. Sahibkar ötən müddət ərzində bir neçə dəfə güzəştli kreditlərdən yararlanaraq istehsal üçün zəruri şəraitin yaradılmasına nail olub. Müəssisədə hazırda 15 çeşiddə (ərik, tut, badımcan, gilas, cəviz, gül, çiyələk, böyürtkən və sair) mürəbbə, cem və təbii bal istehsal olunur. Mürəbbələr 270 qramlıq, 4 və 6 ədəddən ibarət qutularda hədiyyəlik hazırlanır. Mürəbbə bişiriləcək meyvələr əvvəlcə gigiyenik qaydalara uyğun olaraq yuyulur, təmizlənir, bəziləri doğranır, sonra isə müvafiq reseptlərə uyğun bişirilir. Onlar tələbata görə 250 və 650 qram, 1 kiloqram 200 qram və 2 kiloqram 400 qram çəkilərdə qablaşdırılır. Məhsulların təzə qalması üçün irihəcmli 2 soyuducudan istifadə olunur. Cəmiyyətdə istehsal olunan məhsullar uyğunluq və gigiyenik sertifikatları ilə təmin olunub.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 24 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlığın genişləndirilməsi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə Hüseyn Fərzəliyev “Tərəqqi” medalı ilə təltif edilib.

Hər iki müəssisənin fəaliyyətindən gəldiyimiz nəticə isə budur ki, muxtar respublikamızda sahibkarlığa göstərilən diqqət və qayğı sayəsində haqqında bəhs olunan istehsal subyektləri artıq daxili bazardakı rəqabətədavamlılıqda özlərini təsdiq ediblər.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Bu gün orta məktəb partası arxasında əyləşərək elmin ilkin sirlərinə yiyələnən qızlarımızın cəmiyyətə savadlı bir fərd kimi daxil olması vacib məsələlərdən biridir. Bu baxımdan maarifçi-ziyalılarımız Azərbaycan qızlarının mükəmməl təhsil almasına çalışıblar. Fəal və mübariz Azərbaycan qadınları öz fəaliyyətində xalqımızın milli-mədəni ənənələrinin qorunub saxlanılmasına və zənginləşməsinə səy göstəriblər. Böyütdükləri qızların həm savadlı, həm də xalqımıza məxsus olan milli-mənəvi dəyərlərə sədaqət ruhunda formalaşdırılmasına xüsusi diqqət yetiriblər. Günümüzdə də bu məsələ öz aktuallığını qoruyub saxlamaqdadır.*



*Təhsil millətin gələcəyidir*

## Bu təhsil ocağında gələcəyin ziyalı xanımları yetişdirilir

### Builki məzunların hamısı tələbə adını qazanıb





1992-ci ildən Naxçıvan şəhərində fəaliyyət göstərən Qızlar Liseyinin pedaqoji kollektivi bu həqiqəti dərindən dərk edir, öz işini bu istiqamətdə qurmağa səy göstərir. Kollektivə belə bir şərəfli işin öhdəsindən layiqincə gəlmək üçün hərtərəfli şərait yaradılıb.

Belə ki, 2012-ci ilin fevral ayının 9-da yenidən qurulan lisey binasına əlavə olaraq bir mərtəbə də artırılıb, sinif otaqları genişləndirilib, fənn kabinələrində müasir şərait yaradılıb. Hazırda zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada 32 sinif otağı, fənn kabinələri, elektron lövhəli siniflər, kompüter otaqları, müəllimlər otağı və idman zalı vardır. Liseydə təhsil alan 384 şagirdin təlim-tərbiyəsi ilə 56 müəllim və tərbiyəçi məşğul olur.

Muxtar respublika məktəblərində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi tədrisin məzmunca yenilənməsinə səbəb olub. Naxçıvan Qızlar Liseyinə 49 kompüter verilib, onlardan 1-i kitabxanada, 48-i isə 3 kompüter sinfində quraşdırılıb və internetə çıxışları təmin edilib. Yenidənqurma işləri çərçivəsində liseydə 4 elektron lövhəli sinif yaradılıb. Məktəbin zəngin kitabxanası şagirdlərin biliklərinin, intellektual səviyyələrinin yüksəldilməsinə geniş imkanlar açıb.

Kimya, biologiya və fizika kabinələri tədris avadanlıqları ilə zəngindir. Bu kabinələrdə müvafiq fənlər üzrə dərslərin tədrisi yüksək səviyyədə aparılır. İlk tibbi yardım kabinəsi də lazımi avadanlıqlar və məlumat stendləri ilə təchiz olunub, şagirdlərə ilkin tibbi yardımın öyrədilməsi üçün hər cür şərait yaradılıb. Liseydə musiqi dərsləri də yüksək səviyyədə tədris olunur. Burada ayrıca musiqi otağı yaradılıb, məktəbə pianino verilib.

Ali məktəblərə builki qəbul imtahanlarında ən yüksək nəticə qazanan təhsil ocaqlarımızdan biri də haqqında bəhs etdiyimiz Qızlar Liseyidir. Bu məktəbdə dəfələrlə olmuşam. Yaradılan şəraiti, pedaqoji kollektivin tələbkarlığını görmüşəm. Məktəbin direktoru Aidə Allahverdiyeva ilə söhbətə də bu prizmadan başladıq:

– Gələcəyin anaları olacaq qızlarımızın təkcə savadlı məzun kimi yox, həm də əsl Azərbaycan qadını kimi tərbiyə olunmalarına çalışırıq. Məktəbin xalçaçılıq, tikiş-toxuculuq və kulinariya dərnəklərində gələcəyin xanımlarına bu peşələrin sirləri öyrədilir.

Burada görüşdüyümüz valideyn Günay Məmmədova bildirdi ki, qızım Rübabə 650 balla tələbə adını qazanıb. Onun bu adı qazanmasında böyük əməyi olan kollektivə minnətdarlığımı bildirmək üçün buraya gəlmişəm. Onu da deyim ki, liseydə qızlara təhsil verməklə yanaşı, onlara qadın üçün vacib olan peşələr üzrə ilkin vərdişlərin öyrədilməsi bütün anaların ürəyincədir. Onun sözlərini Sevinc Məmmədova da təsdiq edərək öz minnətdarlığını bildirdi.

Liseyin builki uğurları barədə ətraflı məlumat verən Aidə müəllimə qeyd etdi ki, 2017-2018-ci dərs ilində məktəbi 42 məzun bitirib. Məzunlardan biri gümüş medala, 7 nəfəri fərqlənmə attestatına layiq görülüb. Onların hamısı göstərilən etimadı doğruldublar. Məzunların biri orta ixtisas, 41-i ali məktəblərə qəbul olunub. Tələbə adını qazananların 13-ü 500-700 intervalında bal toplayıb. Leyla Zeynalova isə 672 balla məktəb üzrə ən yüksək nəticəyə sahib olub. Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olunub. Leyladan ali məktəbə yüksək balla qəbul olmaq üçün hansı amillərin başlıca rol oynadığını soruşduqda dedi:

– Doğma Naxçıvanımız gözlərimiz önündə günbəgün çiçəklənir, bütün sahələrin inkişafına diqqət yetirilir. Təhsil sahəsi də bu qayğıdan yetərincə bəhrələnib. Hər il muxtar respublikada yeni məktəb binaları tikilir, tədris ocaqlarının maddi-texniki bazası gücləndirilir. Bu da hər bir məktəblinin yüksək səviyyədə təhsil almasına imkan verib. Mən və sinif yoldaşlarım yaradılmış belə şəraitdən səmərəli istifadə etdik. Mənimlə bərabər sinif yoldaşlarım Tavat Məmmədli, Rübabə Məmmədova da Azərbaycan Dövlət Tibb Universitetinə daxil olublar. Yüksək bal toplayan Səbinə İbrahimova Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsində təhsilini davam etdirəcək. Elə digər sinif yoldaşlarımın da zəhməti hədər getməyib. Bizim üçün belə şəraiti yaradanlara, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımızı bildiririk.

Məktəbin müəllimləri ilə söhbətdə ötən dərs ilinin məzunları haqqında xoş sözlər dedilər. Onların qəbul imtahanlarında yüksək bal topladıqlarını məktəbdə yaradılmış şəraitlə əlaqələndirdilər. Kimya müəllimi Elmira Hüseynli dedi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsil işçilərinə göstərdiyi qayğı, onlar qarşısında müəyyənləşdirdiyi vəzifələr bir ali məqsədə söykənib: dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər vətəndaşlar tərbiyə etmək. Biz isə həm də gələcəyimizin anaları olacaq qızların təlim-tərbiyəsi ilə məşğuluq. Bu da üzərimizə daha böyük vəzifələr qoyur. Çünki gələcəyimizin necə olacağı məhz belə vətəndaşlardan asılıdır. Bu məsul vəzifələrin yerinə yetirilməsində müasir tədris üsullarına geniş yer veririk. Bu, mövcud ənənəvi üsulların üstündən xətt çəkmək deyil, onları daha da təkmilləşdirməkdir. Düzdür, bu gün zamanla səsləşməyən bəzi metodlar var, ancaq kollektiv artıq onların özünü doğrultmadığını görür. Məsələn, sübut olunub ki, "Hafizə məktəbi" bugünkü məktəbliyə heç nə vermir. Zaman dəyişdikcə hər gün müxtəlif yeniliklər həyatımıza daxil olur. Həssas müəllim bunu görür və fəaliyyətini də bu istiqamətdə qurur, nəticəsinin uğurlu olması onu daha da ruhlandırır.

Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Yeganə Mustafayeva:

– Sinifdə neçə şagird varsa, bir o qədər də xarakter var. Onu da unutmuruq ki, biz ancaq qızlarla işləyirik. Onlara elmlərin sirləri ilə yanaşı, həm də müəyyən evdarlıq bacarıqları aşılamaq kimi vəzifəni yerinə yetiririk. Bu da böyük məsuliyyət tələb edir. Əgər alınə jurnal alıb sinfə girən müəllim bunu dərindən dərk edirsə, o, nailiyyət qazanmaya bilməz. Fərdi yanaşma və sinfin ümumi fəallığının təmin olunması tədrisin səviyyəsinin yüksəldilməsində böyük təsirə malikdir. Çalışırıq ki, fəaliyyətimizdə bunları diqqətdə saxlayaq. Təcrübəmdə bu metoddan istifadə etməyin effektiv olduğunu görmüşəm. Bizimlə birgə çalışan gənc müəllimlərə də bunu tövsiyə edirəm.

Liseyin müəllimlərindən Gülmira Əsgərova da söhbətə qoşularaq təhsilin səviyyəsinin yüksəldilməsində müxtəlif metodlarla yanaşı, şagirdlərin mütaliə mədəniyyətinin inkişaf etdirilməsini də vacib sayır. O, bu işdə məktəb kitabxanasının da üzərinə mühüm vəzifə düşdüyünü deyir:

– Bu gün məktəbimizin kitabxanası klassik və müasir Azərbaycan, həmçinin dünya ədəbiyyatı nümunələri ilə zəngindir. Bu xəzinədən istifadə etmək üçün kitab müzakirələrinin keçirilməsini, kitabxanaya gətirilmiş yeni kitabların sərgilərinin təşkil edilməsini diqqətdə saxlayırıq. Bu da uşaqlara əlavə biliklər verməklə yanaşı, onlarda mütaliə mədəniyyəti formalaşdırır. Bəzən səhv olaraq deyirlər ki, uşaqlarda mütaliəyə marağı gücləndirmək üçün ədəbiyyat fənnindən ayrılmış sinifdənxaric oxu materialları kifayətdir. Əslində, belə deyil. Kitabxanada humanitar və dəqiq elmlərlə də bağlı müxtəlif kitablar var. Onlardan necə istifadə olunması üçün bütün müəllimlər məsuliyyət daşıyır və yaxşı haldır ki, həmkarlarım bu məsələdə öz vəzifə borclarına həssaslıqla yanaşırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə oxunması zəruri hesab edilən kitablardan ibarət hazırladığımız guşə şagirdlərimizin ixtiyarına verilib.

Səkinə Kazımova isə deyir ki, gələcəyimizin anaları olacaq bugünkü şagirdlərimizi həyata hazırlamaq üçün onlarla fərdi məşğul olmağa üstünlük veririk. Qızların müxtəlif evdarlıq peşələrinə yiyələnməsi üçün səyimizi əsirgəmirik. Məktəbimizin builki uğurlarını isə pedaqoji kollektiv son hədd hesab etmir.

Qarşıdan yeni dərs ili gəlir. Bu tədris ilinə də ciddi hazırlaşan kollektiv inanırıq ki, 2018-2019-cu tədris ilini də uğurla başa vuracaq, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirəcək.

**Muxtar MƏMMƏDOV**

## On yaşlı Arxeologiya və Etnoqrafiya Muzeyi maddi-mədəni irsimizin təbliğinə xidmət edir





Naxçıvan Muxtar Respublikasında muzey işinin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, burada müxtəlif sahələr üzrə təşkil olunmuş otuzadək muzey fəaliyyət göstərir. Son dövrlərdə bu siyahıya əlavə edilən "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, "Əlincəqala" Tarix-Mədəniyyət, Dövlət Bayrağı, Naxçıvan Duz muzeyləri və digər bu kimi mədəniyyət müəssisələri tariximizin yadigarlarının qorunmasının və təbliğinin inkişaf dinamikasından xəbər verir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində yaradılmış Arxeologiya və Etnoqrafiya Muzeyi də məhz bu inkişafın təzahürlərindən biri kimi meydana çıxıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı 2005-ci il 6 dekabr tarixli Sərəncam əsasında bölmədə təşkil edilən ekspedisiyalar zamanı əldə olunan çoxsaylı arxeoloji və etnoqrafik materiallar belə bir muzeyin formalaşdırılmasına zərurət yaratmışdı.

On il bundan əvvəl AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin qərarı ilə Azərbaycan Respublikasında ayrıca olaraq arxeologiya və etnoqrafiya sahəsi üzrə təşkil olunmuş 3 muzeydən biri, muxtar respublikada isə bu sahədə yeganə olan yeni muzey yaradılıb.

Muzeyin yaradılmasından keçən 10 il ərzində burda saxlanılan eksponatların sayı artırılıb, çeşidləri zənginləşdirilib. Onların böyük bir qismi Arxeoloji xidmət şöbəsinin fondunda mühafizə edilməkdədir. I Kültəpə, Sədərək, Ovçular təpəsi, Ərəbyengicə, II Kültəpə, Qız qala, Xaraba Gilan, Şahtaxtı, Oğlanqala, Zoğala və digərləri ilə birlikdə 21 arxeoloji abidədən aşkar olunan 550-dən çox maddi-mədəniyyət nümunəsi isə muzeyin sərgi salonunda nümayiş etdirilir. Neolit dövründən başlayaraq son orta əsrlər dövrünədək xronoloji ardıcıllıqla sıralanan bu dəyərli eksponatlar muzeyi ziyarət edənlərdə doğma diyarımızın tarixi haqqında zəngin təsəvvür yaradır.

Muzeyin cəhrə, teşti, nehrə, keçə və digər tədricən unudulmaqda olan məişət əşyaları ilə təmsil olunan etnoqrafik materialları milli-mənəvi dəyərlərimizin qorunması və təbliği baxımından son dərəcə əhəmiyyətlidir.

Muxtar respublikanın müxtəlif bölgələrində aparılan tədqiqatlar nəticəsində muzeyə daxil edilən maddi-mədəniyyət nümunələrinin sayı gündən-günə artmaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muzeyə bağışladığı, muxtar respublikamızın 90 illik yubileyi münasibəti ilə təsis olunmuş medallar eksponatlar içərisində xüsusi yer tutur. Hüseyn Cavid, Möminə xatın, Yusif Küseyir oğlu, Qarabağlar və Nuh Peyğəmbərin türbələrini əks etdirən bu dəyərli hədiyyələr muzeyin sərgi salonunu zənginləşdirməkdədir. Eksponatların bir qismi muzeyə müxtəlif təşkilatlar tərəfindən verilib. Vətəndaşlar tərəfindən də muzeyə maddi-mədəniyyət nümunələrinin təqdim edilməsi təqdirəlayiq haldır.

Muzeyin başlıca funksiyası arxeoloji, etnoqrafik materialların və digər maddi-mədəniyyət nümunələrinin toplanması, mühafizəsi və gələcək nəsillərə çatdırılmasından ibarətdir. Bu baxımdan muzey 2 funksiyanı özündə ehtiva etməkdədir: maddi-mədəniyyət nümunələrinin mühafizəsi və mədəni irsimizin təbliği. Bu funksiyalar muzeydə tələbələrə keçilən açıq dərslərlə, muzeyin məlumat-bələdçi kitabçasının hazırlanması, buraya yeni materiallar gətirilməsi və bununla da ziyarətçilərin artırılması vasitəsilə həyata keçirilməkdədir. Ziyarətçilər içərisində orta məktəb şagirdlərindən başlamış yüksək elmi dərəcəli şəxslərə, həmçinin əcnəbi qonaqlara da rast gəlmək olur. Onlar burada Naxçıvanın qədim və zəngin tarixini ardıcıl və sistemli şəkildə öyrənmək imkanı qazanırlar. Bu mənada, adıçəkilən muzey təkcə tariximizin, mədəniyyətimizin deyil, eyni zamanda mənəviyyatımızın da inkişaf dinamikasını nümayiş etdirmək kimi müqəddəs missiyanı yerinə yetirməkdədir.

Qeyd edək ki, yaxın vaxtlarda muzeyin məlumat-bələdçi kitabçasının Azərbaycan, ingilis və rus dillərində yeni nəşrinin hazırlanması Arxeologiya və Etnoqrafiya Muzeyinin 10 illik yubileyinə töhfə olacaqdır.

**Zeynəb QULİYEVA**
***AMEA Naxçıvan Bölməsinin Arxeoloji xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent***

*Naxçıvan uzaq keçmişdən öz tarixi və zəngin mədəniyyəti ilə seçilən məkanlardandır. Qədim insan məskənlərinin yarandığı ilk ərazilərdən olmuş bu diyar, həm də tarixən müxtəlif sənət sahələrinin inkişafına öz töhfəsini verib. Əlverişli iqlim, münbit torpaqlar, su mənbələri burada əkinçiliklə yanaşı, heyvandarlığın, o cümlədən xalçaçılıq, ipəkçilik, çəkməçilik, boyaqçılıq, papaqçılıq və adlarını sadalamadığımız onlarla digər sənət sahələrinin yayılmasına və inkişafına imkan verib. Naxçıvanda yaranmış ilkin sənət sahələrindən biri də gön-dəri məmulatı istehsalı olub.*

## Yapağı papaq, rəngli papuşlar, iki dəst dəyişək və 60 manat pul

### *Naxçıvan Cənubi Qafqazda hansı qədim sənətkarlıq sahəsində liderlik edirdi?*



Tədqiqatçılar bu sənətin yaranma tarixinin ibtidai icma quruluşu dövründən başlandığını bildirirlər. Çünki arxeoloji tədqiqatlar da göstərir ki, qədim insanlar hələ Paleolit dövrünün müxtəlif mərhələlərində ovladıqları vəhşi heyvanların dərilərini daş və sümükdən hazırlanmış kəsici, qaşıyıcı, deşici, hamarlayıcı əmək alətlərinin köməyi ilə emal edərək onlardan sadə geyim və yataq ləvazimatları hazırlayıblar. Gön-dəri məmulatlarının qədim insanların məişətində xüsusi yer tutması Tunc dövründən başlayaraq bu məşğuliyyətin müstəqil sənət sahəsinə çevrilməsinə, daha doğrusu, dabbağlıq sənətinin meydana gəlməsinə gətirib çıxarıb.

Əməkdar incəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradov "Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri)" adlı monoqrafiyasında Naxçıvanda bu qədim sənətin inkişafı haqqında maraqlı məlumatlar verir. Tədqiqatçı bildirir ki, gön-dəri məmulatı istehsalının ilkin mərhələsini xammalın tədarükü və aşılanması təşkil edirdi. Bu işlə peşəkar sənətkarlar – dabbağlar məşğul olurdular. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da dabbağlar xammal kimi iri və xırdabuynuzlu mal-qaranın gön və dərilərindən istifadə edirdilər. Müəllifin bildirdiyinə görə, Birinci Dünya müharibəsi ərəfəsində Naxçıvanda saxlanılan iribuynuzlu heyvanların sayı 48-49 min, xırdabuynuzlu heyvanların sayı isə 172-173 min başa çatırdı. Bununla yanaşı, dabbağlığın inkişafı İran və Türkiyənin həmsərhəd bölgələrindən də xammal tədarükünü zəruri edirdi.

Qeyd edək ki, dabbağxanalar digər sənət sahələrindən fərqli olaraq, adətən, şəhər kənarında salınmış su hövzələrinə yaxın küçələrdə yerləşirdi. Bu da həmin emalatxanalarda suya tələbatın böyük olması və emal prosesində pis qoxuların yaranması ilə bağlı idi. Tədqiqatçı E.Qarayevə görə, Ordubad şəhəri bu sahədə istisnalıq təşkil edirdi. Belə ki, burada hələ xanlıqlar dövründən fəaliyyət göstərən 12 dabbağ emalatxanası şəhərin mərkəzi küçələrindən birində yerləşirdi. XIX əsrin 30-cu illərində tərtib edilmiş arxiv sənədlərindən birində göstərilir ki, "hökumətin bağışlanmaz səhvi ucbatından zavodlar (dabbağxanalar) şəhərin ortasında, düz çayın kənarında tikilmiş ki, bunun da nəticəsində bağlara axan su pis keyfiyyətli olub sağlamlıq üçün zərərlidir".

Aparılmış tədqiqatlara görə, dabbağlığın bölgədə ən mühüm mərkəzləri Naxçıvan və Ordubad şəhərləri idi. XIX əsrin əvvəllərində Naxçıvan şəhərində 22 dabbağ fəaliyyət göstərirdi. Artıq 1865-ci ildə burada çalışan dabbağların sayı 33 nəfərə çatmışdı. Naxçıvan şəhərində bu sənətin geniş yayılması "Naxçıvan əyalətinin statistik təsviri"ndə öz əksini tapıb. Buradakı məlumatlarda göstərilir ki, xanlıqlar dövründə dabbağlıq sənəti ilə məşğul olanlardan toplanan vergilər xəzinənin əsas gəlir mənbələrindən birini təşkil edirdi. Belə ki, həmin dövrdə həm gön-dəri istehsalına, həm də satışına görə xüsusi vergilər müəyyənləşdirilmiş və onların toplanmasını ayrı-ayrı şəxslərə iltizama verilmişdir. 1823-cü ildə şahzadə Abbas Mirzənin əmri ilə hazırlanmış iltizam maddələri haqqında qaydalara görə, dabbağ istehsal edib satışa çıxardığı bir ədəd camış dərisinə görə gümüş pulla 70, öküz dərisinə görə 35, qoyun dərisinə görə isə 10 qəpik həcmində vergi ödəməli idi. Oxşar vəziyyət Ordubad dairəsində də müşahidə edilirdi. Burada iltizamçı hər camış dərisinə görə gümüş pulla 60, hər öküz dərisinə görə isə 30 qəpik həcmində vergi toplayırdı. Bundan əlavə, tədqiqatçı Vidadi Muradov yuxarıda adıçəkilən kitabında qeyd edir ki, Naxçıvan və Ordubad şəhərləri başmaq və çəkmə istehsalı üzrə mühüm mərkəzlərdən sayılırdı. Müəllif xanlıqlar dövrünün sonlarına doğru arxiv sənədlərinə istinadən yazır ki, XIX əsrin 20-30-cu illərində Naxçıvan dairəsində 46, Ordubad dairəsində isə 44 nəfər başmaqçı və çəkməçi fəaliyyət göstərirdi. 1865-ci ildə Naxçıvan bazarında çalışan başmaqçıların sayı isə 98 nəfərə çatmışdı.

Maraqlı məlumatlardan biri də odur ki, XIX əsrdə Cənubi Qafqazda sənətkarlıq təşkilatlarının tarixini tədqiq etmiş S.A.Yegizarovun yazdığına görə, dərzi, toxucu və çəkməçi kimi sənətlərə şagird qəbulu 9 yaşından başlanır və şagirdin valideyni ilə usta arasında müqavilə əsasında tənzimlənirdi. Həmin müəllifin verdiyi məlumata görə, Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan və Ordubad şəhərlərində də çəkməçilik sənətini öyrənmək üçün şagirdlik müddəti 3 il müəyyənləşdirilirdi. Bu müddət ərzində heç bir əməkhaqqı almayan şagird ustanın bütün tapşırıqlarını yerinə yetirir və onun nəzarəti altında sənətin sirlərinə yiyələnirdi. Bu mərhələni başa çatdıran şagird usta köməkçisi – kargər adı qazanır və gördüyü işin müqabilində müəyyən əməkhaqqı alırdı. Kargər statusu ilə fəaliyyətə başlayan şəxs gördüyü işə görə ustadan "hər il iki cüt ayaqqabı, bir cüt corab, bir papaq, iki dəst dəyişək və 60 manat pul" alırdı. Bu vəziyyət Azərbaycanın digər şəhərləri kimi, Naxçıvan və Ordubad üçün də xarakterik idi.

XVII əsrdə Naxçıvana səyahət etmiş türk səyyahı Övliya Çələbi yazırdı ki, Naxçıvan sakinləri daha çox əlvan rəngli ayaqqabılar, yaşıl, sarı, narıncı rənglərə boyanmış, tumacdan tikilən "papuşlar" geyirlər. Onun sözlərinə görə, qadınlar da elə bu materialdan hazırlanmış rəngli çəkmələrə üstünlük verirlər.

Dabbağlığın inkişafı Naxçıvanda və Ordubadda papaqçılığın da inkişafına şərait yaradırdı. Hər iki şəhərin bazarlarında xeyli papaqçı dükanları vardı. Papaq onu gəzdirəcək kişilərin yaşı ilə yanaşı, cəmiyyətdəki mövqeyi də nəzərə alınmaqla üç formada – "şiş papaq", "şələ papaq" və "çalma papaq" formasında tikilirdi. Yaşlı insanlar "zülə papaq", uşaqlar "yapağı papaq", cavan oğlanlar isə "şikarı papaq" qoyardılar.

Bundan əlavə, gön-dəri istehsalının genişlənməsi Naxçıvanda yəhərqayırma – sərraclıq sahəsinin də inkişafına səbəb olmuşdu. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da əsrlər boyu "müsəlman yəhəri" adlanan ağır qaltaqlı yəhərlərdən istifadə olunmuşdu. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra isə əvvəlcə "kazak yəhəri", XX əsrin əvvəllərindən isə "ingilis yəhəri" geniş yayılmışdı. Ancaq bu sənət sahəsi ilə məşğul olanlar digərlərinə nisbətən az idi. Bu da, əsasən, atçılığın digər bölgələrlə müqayisədə az yayılması ilə bağlı idi.

Ümumilikdə, gön-dəri istehsalının Naxçıvan diyarında geniş şəkildə inkişaf etməsi bir çox mənbələrdə öz əksini tapıb. K.Xatisov bu sənət sahəsini "Cənubi Qafqazın ən qədim sənət sahələrindən biri" adlandırırdı. Təkcə o faktı göstərmək kifayətdir ki, XIX əsrin 30-cu illərində Azərbaycanın 5 şəhərində – Şamaxı, Ordubad, Naxçıvan, Nuxa və Şəki şəhərlərində fəaliyyət göstərən 136 nəfər dabbağın 50 nəfəri, başqa sözlə desək, üçdəbir hissəsindən çoxu Naxçıvan və Ordubad şəhərlərinin payına düşürdü. Bu isə Naxçıvanın, həqiqətən, regionda mühüm ticarət və sənətkarlıq mərkəzi kimi özünü təsdiq etməsinin göstəricisidir.

**Hazırladı: Səbuhi HƏSƏNOV**
***Mənbə: Vidadi Muradov***
***"Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri)"***

## Min bir dərdin dərmanı – *Naxçıvan balı*

***Son illər muxtar respublikada arıçılığın inkişafına göstərilən hərtərəfli dövlət qayğısı sahibkarların bu sahəyə olan marağını daha da artırıb. Şərur rayonunun dağ kəndi Havuşda da arıçılıqla məşğul olanların sayı az deyil.***






Kənddə olarkən öyrəndik ki, burada 300 arı ailəsi vardır. Kənd sakini Əli Əliyev 70, Mehman Həsənov 30, Mərdan Hüseynov 36 arı ailəsinə qulluq edirlər. Uzun illərdir, arıçılıqla məşğul olan Mehman Həsənov gənc yaşlarından bu işə başlayıb. Təcrübəli arıçı balın faydalarından da danışır: "Təsadüfi deyildir ki, dünya şöhrətli təbib İbn Sina vaxtilə deyib ki, əgər sağlam ömür sürmək və cavan qalmaq istəyirsənsə, onda mütləq bal yeməlisən. Əlbəttə, baldan istifadə kortəbii olmamalıdır. "Bal min bir dərdin dərmanıdır" deyimi heç də təsadüfi deyil. Güləm, arı südü, bərəmum (vərəmum, dərdəmum), mum, möhür (balın qaymağı), bal arısının ölüsü, arı zəhəri və sair müxtəlif xəstəliklərin təbii dərmanıdır".

O deyir ki, mumundan, hətta zəhərindən dərman kimi istifadə etdiyimiz, bal hasilə gətirən arılar təbiətin ən zəhmətkeş həşəratlarıdır. Arı körpə uşaq kimidir. Daim qayğı və baxım tələb edir. Məhsuldarlıqda ən mühüm şərtlərdən biri də köçəri arıçılıqdır. Erkən yazda qışlamadan çıxan arı ailələrinin yeri mütəmadi olaraq dəyişdirilməlidir. Arandakı sahibkarlar arılarını muxtar respublikanın, əsasən, ucqar dağ kəndlərinə köçürürlər. Buna görə də köçürmə üsulu ilə arı saxlamaqla insanlar ta qədimdən məşğul olublar. Aranda ən yaxşı vaxt ağacların çiçəkləmə dövrünə düşür. Arılar həm ağacların çiçəklərini tozlayır, bol məhsul üçün şərait yaradır, həm də kifayət qədər şirə toplayırlar. Onu da deyək ki, arılar vasitəsilə tozlanan ağaclarda məhsuldarlıq 20-40 faiz artır.

Müsahibim bildirir ki, müstəqillik qazandıqdan sonra muxtar respublikamızda arıçılığın da inkişafına diqqət xeyli artıb. Torpaq kəndlinin özünə verildikdən sorna əkin sahələrinin genişləndirilməsi bu sahənin inkişafına müsbət təsir göstərib. Arıların ən çox bal topladığı yonca, taxıl əkinləri artırılıb. Örüş və qoruq sahələrinin çoxalması da arıçılığın inkişafında böyük rol oynayır. Təcrübə göstərir ki, arılar bir hektar yonca sahəsindən 70-80 kiloqram şirə toplaya bilir.

Peşəkar arıçı arı ailəsi haqqında da maraqlı məlumatları bizimlə bölüşdü:

– Uzun illərdir ki, arıçılıqla məşğulam və hər dəfə də arıların müxtəlif sirlərinə yiyələnmişəm. Arılar mehriban, işgüzar, səmimi bir ailəni xatırladırlar. Arı ailəsindəki qanunları, nizam-intizamı illərlə müşahidə edən arıçı deyir ki, arı ailəsində hər arının öz "işi" var. Gözətçi arılar, yeşiklərin sağ və sol tərəfində həmişə keşik çəkir. İçəri keçmək istəyənləri "yoxlayırlar". Məhsul gətirməyəni, yad olanı içəri buraxmırlar. İşçi arılar çiçəkli, güllü bir yer tapanda tez öz "yoldaşlarını" xəbərdar etmək üçün yeşiyin ətrafında 8-10 dəfə dövrə vurur və həmin sahəyə üz tuturlar. Başqa arılar bu hərəkəti işarə kimi qəbul edir, onun arxasınca gedirlər. Onlar 8 kilometr məsafəyə qədər uçur, şirə toplayıb geri qayıdırlar.

Erkək və ana arıların hər birinin yeşikdə öz funksiyaları var. Hər yeşikdə bir ana arı olur. Ana arı gün ərzində öz çəkisindən dəfələrlə çox yumurta qoyur. Erkək arıların əsas işi ana arının qoyduğu yumurtaların üstündə yatıb onlara istilik vermək, onu yetişdirməkdir.

Kənd sakini Həsən Həsənov deyir ki, arı halallığı və təmizliyi sevən canlıdır. Bu canlıdan müqəddəs kitabımız olan "Qurani-Kərim"də də bəhs olunur. Düşünürəm ki, arıçılıqla məşğul olmaq həm də insanı cavan saxlayır. Elə gün olur ki, səhərdən axşamadək arılara baxmaqla məşğul oluram, amma yorulmaq nə olduğunu bilmirəm. Yəqin, siz də təsdiq edərsiniz ki, ən dadlı bal Naxçıvan balıdır. Azərbaycanın başqa bölgələrində olmuşam. Naxçıvan balının dadını heç yerdə görməmişəm. Bu isə yurdumuzun əlverişli iqlim şəraiti, gözəl təbiəti ilə bağlıdır. Bunun digər bir səbəbi də odur ki, əgər başqa yerlərdə balı mövsüm ərzində bir neçə dəfə süzürlərsə, Naxçıvanda bal süzümü yalnız ildə bir dəfə olur. Az, amma keyfiyyətli. Buna görə də Naxçıvanda istehsal edilən bal tərkibinin zənginliyinə, qidalılığına, müalicəvi əhəmiyyətinə görə digər bölgələrin məhsullarından daha keyfiyyətlidir.

Qeyd edək ki, arıçılığın inkişafı, arı ailələrinin artırılması, eləcə də bu sahədə mütəxəssislərin hazırlanmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 28 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" mühüm rol oynayır. Arıçılıqla məşğul olan sahibkarlar lazım olan dərman preparatlarının dövlət tərəfindən pulsuz verilməsini də böyük minnətdarlıqla qarşılayırlar. Onu da bildirirlər ki, hər il muxtar respublikada keçirilən "Arıçılıq məhsulları – bal" festivallarında fəal iştirak edir, hasilə gətirdikləri bal dadına, görünüşünə və digər xüsusiyyətlərinə görə həmişə yüksək qiymətləndirilir.

**✍ Ramiyyə ƏKBƏROVA**

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 588